**UOT 008:001.8**

**Yeganə Əliyeva**
**kulturologiya üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Az-1065, Bakı, İnşaatçılar prospekti 39**
**E-mail: eqana-aliyeva@yandex.ru**

# HİNDİSTAN QURULARININ TƏLİMLƏRİNDƏ BƏŞƏRİYYƏTİN ALTERNATİV QLOBALİST İNKİŞAF MODELLƏRİ

**Xülasə:** Bu gün Hindistan bəşər cəmiyyətinə müxtəlif alternativ qlobalist inkişaf yollarını təklif edən üçüncü nəhəng Asiya ölkəsidir. Ənənəvi dünyagörüş sərhədlərini aşaraq bu ölkə Şərq və Qərb mədəniyyətlərinin qnoseoloji və dəyər prinsiplərinin sintezinə nail olmağı əsas hədəf mərkəzi seçmişdir. Məqalədə müəllif Şərq və Qərb ideal və dəyərlərini birləşdirən Quru Aurobindo Qxoşun sintetik "inteqral vedanta" nəzəriyyəsini, Şri Satya Sai Babanın "sinkretizm"ə əsaslanan həyat modeli təlimini və s. konsepsiyaları təhlil edir. Müəllifin qənaətinə görə, Qərb auditoriyasının neoinduizmə rəğbət münasibətinin əsasında bu təlimlərin Şərq və Qərb ənənələrinin harmonik şəkildə sintez etmək bacarığı durur.

**Açar sözlər:** Hindistan, Şərq, Qərb, inteqralizm, sinkretizm, neoinduizm.

**Giriş**. Bu gün əsrlər boyu yaradılan bəşər mədəniyyətinin ən parlaq nailiyyətlərinin harmonik sintezindən ibarət ümumbəşər sivilizasiya formalaşır. Bu durumda polikültür dünya modelinin təcəssümü kimi Hindistan mədəni qloballaşma baxımından "nəhəng laboratoriya" olaraq dünya ictimaiyyətinin diqqəti mərkəzindədir.

Texnogen sivilizasiyaların böhran yaşadığı dövrdə mədəniyyətlərarası dailoqun inkişaf etdirilməsi gələcək tərəqqinin alternativ yolu hesab olunur. Qloballaşmanın texnogen təsirlərindən yan qalmamış Asiya bu durumda qlokalizasion inkişaf strategiyasına üstünlük verir. Qeyri-texnogen sivilizasiya olan Asiya üçün qlokalizasion

strategiya mədəniyyətlərin qarşılıqlı zənginləşmə və yerli ənənələrin qorunması fonunda baş tutan modernizasiya və formalaşmaqda olan qlobal multikultural sivilizasiyanın nailiyyətlərinin sintezidir. İstisna yalnız ərəb-müsəlman dünyasının əksər ölkələri təşkil edir ki, onlar lokalizasiyanı inkişaf istiqaməti kimi prioritet seçmişlər.

Hindistan dünya ictimaiyyətinə alternativ inkişaf yolunu təklif edən üçüncü nəhəng Asiya ölkəsidir. Hindistanın qeyri-texnogen qlobal dünyagörüşü bəşəriyyətə qlokalizasiya inkişaf strategiyası çərçivəsində ənənəvi mənaların və sosiomədəni dəyərlərin eksportunu (ixracını) təklif edir. Sivilizasiyaların, mədəniyyətlərin və dinlərinharmonik birgəyaşayış mövzusu neoinduizmi əsas düşündürən məsələlərdən biridir. Məlumdur ki, Hindistan real təcrübədə konkret proqramlarla və əməli tədbirlərlə bəşəriyyətin yaxınlaşmasına xidmət edən addımlar atmış və atmaqdadır. Hindistan ənənəvi dünyagörüş sərhədlərini aşaraq Qərb və Şərq mədəniyyətlərinin qnoseoloji və dəyər prinsiplərinin sintezinə nail olmağı əsas hədəf mərkəzi seçmişdir.

**Quru Şri Aurobindo Qxoş təlimində inteqralizmə əsaslanan birgəyaşayış modeli.** Yer üzündə yeni həyat tərzinin müəlliflərindən biri hind və avropa mədəni ənənələr, ideya və postulatların sintezi üzərində ümumbəşəri dini-fəlsəfi sistemin yaradılmasına cəhd edən neoinduizmin görkəmli nümayəndəsi Quru Şri Aurobindo Qxoşdur (1872—1950). Onun müəllifi olduğu "inteqral vedanta ve yoqa" konsepsiyası Şərq və Qərbin ideal və dəyərlərini birləşdirən oriqinal nəzəriyyədir. O, vedantasistemini qlobal şəkildə yenidən dərk edərək induist ənənənin və yad mədəniyyətlərin potensialı əsasında ali kosmik və mədəni birgəyaşam modelinin yaradılmasına cəhd göstərmişdir. Ş.Aurobindoya bəşəriyyətin xilaskarı statusu verilərək onun "bütün zamanların və xalqlara məxsus" olduğu vurğulanır. Ölümündən sonra 1966-ci ilin oktyabr-noyabr aylarında YUNESKO-nun Baş Konfransının qərarılə beynəlxalq ictimaiyyətin gücü ilə hind mütəfəkirinin şərəfinə Pondişeri yaxınlığında şəhərin tikilməsini nəzərdə tutan "Aurovill" layihəsi təsdiq edilmişdir. 19 iyun 1967-ci ildə yeni şəhərin bünövrəsi salındığı gün 16 dildə oxunan "Aurovill xartiyası"nda deyilirdi: "Aurovill bütün bəşəriyyətə məxsusdur... bura həqiqi Bəşər Birliyini təcəssüm edən məkan olaraq praktiki və nəzəri tədqiqatlar mərkəzi olacaqdır". Şəhərin tikilməsinə dair planlar istənilən miqyas almasa da, 1970-ci ildə burada Aurovill məktəbi təsis edilmişdir.(1, 140) Aurobindonun fəlsəfi təlimi əhatə etdiyi dünyagörüş problemlərinin əhatə dairəsinə görə mürəkkəb struktura malikdir. Tədqiqatçıların əksəriyyəti onu kompleksli və ya "sintetik", "inteqral" xarakterli hesab edirlər. Aurobindonun fəlsəfitəlimi Şərq və Qərbin dünyagörüşlərinin sintezi hesab olunur. Qonolupuda yerləşən Havay Universiteti nəzdində fəaliyyət göstərən "Şərq-Qərb" Mərkəzinin direktoru Çarlz Mur hesab edirdi ki, "bu hind mütəfəkkirinin irsi ilə tanış olduqda təsəvvür yaranır ki, Aurobindo müasir dünyanın köklü ideya və ideallar sahəsində sintez və harmoniyanın əldə eilməsi məqsədinə nail ola bilib". (2,114)

XX əsrin ən dinamik mütəfəfəkkiri hesab olunan Aurobindo hind və dünya fəlsəfi fikir tarixinə "inteqralizm"i ilə yenilik gətirmiş oldu. Onun konsepsiyasının əsasını həyat varlığının və dəyərlərinin fundamental kateqoriyalarını hərtərəfli əhatə edən inteqrasiya anlayışı təşkil edir. O, konfliktdə olan ziddiyyətli baxışların sintezini təklif edirdi. Əsasən realist dünyagörüşə malik filosof əşyaların "daha da yaxşı ola biləcəklərinə" inanaraq idealistlərlə də razılaşmalı olurdu.

Aurobindonun fikrincə, kainatın bu günki durumu İdrak qüvvələrinin ikili hərəkatının nəticəsidir: evolyusiya və involyusiya. Evolyusiya və involyusiya kimi

proseslərin mürəkkəb kompleksində Aurobindo insana xüsusi yer ayırırdı. O, digər filosoflardan fərqli olaraq insanı evolyusiyanın pik nöqtəsi hesab etmir, lakin onun müstəsna rolunu da vurğulamağa da unutmur. "İnsan idrakının və bədəninin Yer üzündə peyda olması evolyusiya prosesində həll edici rol oynadı" fikrini irəli çəkən Aurobindo qeyd edirdi ki, əgər əvvəllər evolyusiya kortəbii qüvvələrin təsiri altında həyata keçirdisə indi isə bu prosesə insanın biliyə olan sərhədsiz iradəsi və istəyi də qoşulmuşdur. Ümumiyyətlə, Aurobindonun evolyusiya və involyusiya nəzəriyyəsini təklif etdiyi idrak iyerarxiyasından ayrı dərk etmək olduqca çətindi.

Aurobindo idrakların iyerarxiyası konsepsiyasının müəllifi olaraq idrakın növlərini aşağıdakı kimi təsnif edir. Adi idrak (Mind), Ali idrak (Higher Mind), Nurlandırılmış İdrak (İlumined Mind), İntuitiv İdrak (Intuitive Mind), Fövqəl İdrak (Supermind), Qlobal idrak (Overmind). Bu iyerarxiyanın aşağı pilləsində adi və ya gündəlik insan şüuru dayanır. İnsan bu şüür səviyyəsi ilə kifayətlənməyib Ali idraka doğru addım atmalı, bunun üçün daim öz üzərində çalışmalıdır."Ali idrak bizi adi insan ağlından, normal intellektin alatoranlığından, zülmətindən xilas edir". Mütəfəkkirə görə, Ali İdrak "mənəvilikdən doğan konseptual dərketməyə əsaslanan" ağıldır. Ali idrak ideyanın gücü vasitəsilə varlığa, ağlın iradəsinə, hisslərə təsir edən idrakdır. Ali idrak normal insan intellektinin ali səviyyəsidir. Daha sonra yüksələn xətt və dini-mistiktendensiyalar üzrə sıralanan idrak növləri Nurlandırılmış İdrak (İlumined Mind),İntuitiv İdrak (Intuitive Mind), Fövqəl Idrak (Supermind) yüksək plastikliyə malik Qlobal idraka (Overmind) keçid mərhələridir. Qlobal idrak Aurobindoya görə geniş imkanlara malikdir. Qlobal idrak dinamik mənəvi transformasiyanın son pilləsidir. Aurobindonu təsnif etdiyi idrak növləri daimi hərəkətdə, qarşılıqlı əlaqədədir. Mütəfəkkirə görə, idrak iyerarxiyasının yüksələn xətti üzrə inkişaf evolyusiya, enən hətti üzrə proseslər involyusiyadı. Bu dinamik vektorlar üzrə hərəkət prosesində ziddiyyətlər barışır və "inteqrasiya" baş tutur. Aurobindo bu proseslərin mexanizmlərini və ya qanunauyğunluqlarını açmağa cəhd edir. Onun fikrincə, Qərbin təklif etdiyi evolyusiya ideyası təbiətin fiziki və bioloji hadisələri ilə məhdudlaşır. Evolyusiyanın Qərb interpretasiyasında maddi əsas mənəvi başlanğıcı ikinci plana salır. Bu boşluğu aradan qaldırmaq üçün Aurobindo evolyusiyanın öz interpretasiyasını və involyusiya terminini təklif edir. Onun qənaətinə görə, evolyusiya və involyusiya bir birlərinə əks və eyni zamanda bir-birlərilə əlaqədə olan iki qanunauyğun prosesdir. Qlobal idrakın ontoloji təbiətindən çıxış edərək o, involyusiyanın evolyusiyadan əvvəl baş verdiyini göstərir. Əgər evolyusiya yüksələn xətt üzrə inkişafdırsa, involyusiya enən hətt üzrə inkişafdır. Məhz inteqral şüurun total transformasiyası varlığın və təbiətin unifikasiya və transformasiya vasitəsilə həyatın harmonizasiyasına bazis olacaqdır.

Aurobindoya görə, onun təklif etdiyi bəşəriyyətin evolyusion və involyusion inkişaf nəzəriyyəsi elmi evolyusiya nəzəriyyəsinə arxalanır. Lakin onun təlimində mistifikasiya və spekulyativ-idealist fikirlərin üstünlük təşkil etməsi ideyalarının reallaşmamasına səbəb oldu. Onun bəzi ideyaları irəli sürdüyü təlimə zidd çıxırdı. Lakin Aurobindo irsinin tədqiqi inamla söyləməyə imkan verir ki, o Qərb və Şərq ideyalarını sintez edərək fəlsəfi sisteminin inteqritizminə nail ola bilmişdir. İndinin özündə belə Aurobindo aşramının aktiv fəaliyyət göstərməsinə baxmayaraq onun fəlsəfəsinin davamçıları yetişməmişdir. Aurobindo induizmin



Aurovill şəhərinin simvolu

tərəfdarı olsa da hesab edirdi ki, "dünya dinləri bir çox insan ruhunu xilas edə bilmişdir, lakin bu dinlərin heç biri bəşəriyyəti mənəvilik baxımdan canlandırmağa bacarmamışdır". Onun fikrincə bu missiyanı yalnız "inteqralizm" həyata keçirməyə qadirdir. Hazırda Aurobindonun inteqral yoqa fəlsəfəsini yaşadan müxtəlif tədbirlər sırasında qlobal internet məkanında insanın və ətraf aləmin dinamik dərkinə istiqamətlənmdirilmiş“Səhərin şehi” İnteqral Özünüdərk Portalı fəaliyyət göstərir. Portalın məqsədi özünüdərketməyə və kainatda yerini müəyyən etməyə cəhd edən insanları heç bir konkret konsepsiya və ya ideya ilə məhdudlaşdırmadan ətrafında cəmləşdirməkdir.

YUNESKO-nun və Hindistanın Təhsil Nazirliyinin layihəsi olan beynəlxalq “Şəfəq şəhəri” – Aurovilin təyinatı bəşər mənəvi dəyərlərinə arxalanan beynəlmilləl cəmiyyət ideyasını təcrübədə sınamaqdır. 1968-ci ildə 124 ölkənin nümayəndələrinin iştirakı ilə bünövrəsi salınan bu şəhərin mərkəzində Matrimandir – Yaradıcı Enerji məbədi yerləşir. Məbədin konsentrasiya üçün ağ zalının mərkəzində ölçüsünə görə dünyada ən iri monokristal yerləşdirilib. Aurovilin 1500 yaxın daimi, 3000 yaxın isə müvəqqəti sakini vardır. Aurovil beynəlmilləl cəmiyyətin unikal ideyanın təcrübədə reallaşmasıdır. Həmin ideya Aurovil şəhərinin simvolunda öz əksini tapır. Gül təsvirli simvolun mərkəzəndəki nöqtə Ali Birlik, daxili dairə Şəhərin yaranma ideyası – yaradıcı yanaşma, ləçəklər isə ifadənin gücü, reallaşmanı bildirir. Burada dünyanın müxtəlif yerlərindən müxtəlif milli, dini, mədəni ənənələr sahibi olan sosial qrupların qarşılıqlı anlaşma, yaradıcı fəaliyyət abu havasında birgəyaşayışı həyata keçirilir.(2)



Sarvadxarma - bütün dinlərin və Satya Sai Babanın simvolu

**Şri Satya Sai Baba təlimində sinkretizm.** Şri Aurobindonun bəşəriyyətə təklif etdiyi inteqralizmə, Qlobal İdrak və İnteqral özünüdərkə arxalanan həyat tərzinə alternativ olaraq neoindust dini lider, quru **Şri Satya Sai Baba** (1926- 2011) təlimi, bu gün isə onun ardıcılları beynəlxalq hərəkat miqyasında sinkretizmə əsaslanan həyat modelini dünya ictimaiyyətinə təklif edirlər. Məlumdur ki, sinkretizm bir fəlsəfi termin kimi müxtəlif fəlsəfi, dini təlimləri birləşdirmədən, onların ziddiyyətliliklərini qorumaqla vahid sistemə salınmasını nəzərdə tutur. Məhz Sai Baba hərəkatının geniş vüsət almasının başlıca səbəblərindən biri sinkretizmi dəstəkləməklə “müxtəlif dinlərə mənsub həmməzhəblərin” ətrafında toplamasındadır. Sai Baba elan edir: “Mən İlahinin sitayişində istifadə olunan bütün adları təsdiq edirəm... mənsub olduğunuz dinə öz ənənələrinizə istinad edərək sitayiş etməyə davam edin. Onda siz dərk edəcəksiz ki, Mənə daha da yaxınlaşmış olursuz. Çünki bütün adlar mənimdir, bütün formalar da mənimdir”.




Satya Sai Babanın beynəlxalq təşkilatının simvolu

Satya Sai Babanın təlimi avropalıların düşüncə tərzinə mümkün qədər uyğunlaşdırıldığına və həttə təşkilatın ingilis dilli olduğuna görə müasir qloballaşma tendensiyalarına cavab verir. Sai Baba Qərb mədəniyyətini tənqid edir. Onun fikrincə, müasir dünyada insanları maddiyyat daha çox düşündürür və bu durumda Hindistanın missiyası bəşəriyyəti dini-əxlaqi maarifləndirmədir. Sai Babaya görə, bütün dünya dinləri öz başlanğıcını induizmdən götürüb. Bütün dinlərin ali təyinatı bəşəriyyətə xidmətdir. Digər dinlərdən fərqli olaraq yalnız induizm “advayta” prinsipinə əsaslanaraq dini hadisələrin

çoxluğunda müəyyən vahid bir reallığın təcəssümünü görür. "Advayta" induizmin coğrafi sərhədsizdiyini və müxtəlif millətlərə mənsub insanlar tərəfindən qəbul edilməsini təyin edir. Satya Babanın təlimində yerli hind və müasir Qərbi Avropa mədəniyyəti öz əksini tapır. Hind fəlsəfi ideyalarının Qərb mədəniyyətində adaptasiya və interpretasiyası hinduların dininə məxsus dini-dünyagörüşü plüralizminə görə mümkün oldu.

Satya Sai Babanın təlimi ilk baxışdan induizm ideyalarının dəqiq sistemidir. Bumənada o Qərbin sosial təcrübəsindən uzaq görünə bilər. Əslində isə onun təlimi öz ideyalarını Qərb dünyagörüşünə məharətlə adaptasiya edir və Qərb mədəniyyətinin müxtəlif istiqamətlərini özünə hopdurur. Eyni zamanda da bütün səylərlə induizm ənənələrini qoruyaraq onun messian rolunu əsaslandırır.

**Şri Çinmoy**. Neoinduizmin görkəmli filosofu, ictimai xadimi Şri Çinmoy (1931-2007) induizmdə dünya mədəniyyətlərinin inteqrasiyasını həyata keçirmək üçün böyük potensial görür. Bu potensialın daşıyıcısı isə insandır. Şri Çinmoya görə ilk növbədə insan, onun şüuru dəyişməlidir ki, ətraf aləm həmin transformasiyaya cavab olaraq dəyişsin. Çinmoyun "dxarma" anlayışının tərifinə görə "oyanmış insan şüurunun" əsas məqsədi cahilliyə son qoyub "həqiqət" axtartışına çıxmaqdır. Bu mənada "dxarma" anlayışı dini interpretaiyadan azad olur. Çinmoy "dxarma"nı insan varlığının daxili kodu, onun həyatda təyinatı, Yer üzündə mövcudluğunun mənası, xüsusi missiyası kimi müəyyən edir. "Yoqa və ruhani həyat: Hindistan ruhunun səyahəti" adlı kitabında Şri Çinmoy yazır: "Birliyə aparan hər bir yol – həqiqətdir". (3) İnduizmdə dinlərin fərqliliyi inkar olunur və bütün dinlər universal din kimi qəbul edilir.

**Şri Şri Ravi Şankarın "Qızıl əsr" ideyası.** "Həyat sənəti" təliminin müəllifi hindli quru və ictimai xadimi Şri Şri Ravi Şankar (1956) hesab edir ki, hazırda cəmiyyətin həyatında "Yeni əsr" və ya "Qızıl" əsr adlanan yeni hadisənin formalaşması baş verir. "Yeni əsr" əslində keçmişdə mövcud olan "Qızıl əsrin" qayıdışıdır. O, müasiri olduğumuz dövrü "intellekt", "nüfuz", "madiyyat"a, "texnologiy və sivilizasiya"nın nailiyyətlərinə üstünlük verilməsinə, "pestisid və antibiotik"lardan istifadəsinə görə tənqid edir. O, ümid edir ki, "Yeni əsr" yeni bəşər dəyərlərinə arxalanan yeni sivilizasiyanın formalaşması ilə əlamətdar olacaqdır. Ravi Şankar ümumbəşəri dəyərlərə "özünütənqid", ""sevgi , "meditasiya", "təbii orqanik əkinçiliy"i aid edir. Onun yaratdığı "Ümumbəşər dəyərlər uğrunda Beynəlxalq Assosiasiya"nın (İAHV) ali məqsədi insanın özünütəkmilləşdirilməsi və dini-mənəvi inkişafı ilə bərabər "sağlamlıq", "yaşayış yerləri ilə təmin olunma", "gigiyena", "ümumbəşər dəyərlər", "müxtəliflikdə harmoniya" kimi "humanitar xidmət layihələrini" həyata keçirməkdən ibarətdir. (4)

**İnduizmdə antiqlobalist meyllər: Oşo Radjniş təlimi.** Lakin onu da qeyd edək ki, induizmin qlobalist qanunauyğunluqalırına adaptasiya prosesi birmənalı reallıq deyildir. Bir tərəfdən, induizmin etnik dindən sekulyarizasiya prosesləri ilə müşahidə olunan dünya dininə çevrilməsi hadisəsi bu dinə mənsub olanlar tərəfindən alqışla qarşılanırdı. Digər tərəfdən isə, həmin sekulyarizasiya prosesləri hind cəmiyyətinin daxilində artıq 30-40 il ərzində gündən günə artan etirazla müşahidə olunur. Son 10 ildə isə bu etirazlar açıq aydın antiqlobalist xarakter daşıyır. Hind cəmiyyətinə zidd həyat tərzi, kasta sisteminin ləğv olunması, veqeterianlıqda qadağa olunan qida növlərinin reklam edilməsi (aximsa prinsipinə zidd olan), KİV vasitələrinin təbliğ etdiyi sekulyar xarakterli Qərb, xüsusilə də xristian mədəni ənənələrin (Valentin günü), xristianlığın yayılmasına, televiziyayanın təbliğ etdiyi kütləvi mədəniyyətə qarşı hind cəmiyyətində olan reaksiyanı antiqlobalist hərəkat kimi deyərləndirmək olar. Məsələn, Satya Sai

Babanın televiziyanın cəmiyyətdaxili və dünyasəviyyəsində mənfi təsiri barədə ingilisdilli sloqanların birində yazılıb "Television is televisham" (Televiziya – telezəhərdir.) (5)

Avropalaşdırılmış induizmə kontrast kimi Oşo Radjniş (1931-1990) hərəkatının təbliğ etdiyi kosmolitizmi müəyyən mənada qlobalistik ideyaları təbliğ edir. Oşonun təliminə görə "insanın əsl vətəni onun daxili aləmidi". Oşonun ardıcılları antiqlobalist olmasalarda asosialdırlar. Oşo hərəkatı liberal hesab olunsa da Qərbi Avropa cəmiyyətinin liberalizm modelindən fərqlənir. Bu hərəkatın ardıcılları Qərbin mədəni dəyərlərini və sosial normaların relyativizmini qəbul etsələr də fərd səviyyəsində həmin normaların dəf olunmasını təbliğ edir. "Qalib gələ bilməyənlər" həqiqəti dərk etməyə "hazır omayan", "yetişməyən"lər kimi qiymətləndirilirlər. Oşonun təklif etdiyi sosiumdan kənarda duran "alternativ insan" modeli mahiyyət etibarı ilə asosial olaraq müəyyən mənada antiqlobalist meylləri özündə təzahür etdirir.

**Vasudev Sadhquru və "mənəvi quruculuq texnologiyası"**. "Dj. Nehrunun kulturoloji görüşlərini təhlili göstərir ki, o, XX əsrin əvvəlində insanı zamanın tələblərinə uyğun formalaşması üçün yaşam tərzinin fəlsəfi bünövrəsini də deyişməlidir. Bəşəriyyətin mənəvi tarazlıqda yaşamı naminə Nehru bütün dinlərin özəyində duran ən ali dəyərləri özündə cəmləşdirən "mənəvilik" adlanan yeni dini yaratmağa dəvət edirdi. Müasiri olduğumuz XXI əsrin əvvəlində həmin ideyanın praktiki reallaşmasını hindistanlı yoqin və mistik Vasudev Sadhqurunun (Sadhguru, 1957) "Mənəvi quruculuq: gümrahlığın texnologiyaları" (İnner Engineering: Technologies For Wellbeing) layihəsi çərçivəsində həyata keçirir desək düşünürəm yanılmarıq. Onun insanların mənəvi və fiziki rifahının yüksəlişinə xidmət edən təlimi müasir qlobal problemlərə qəti baxışı və insan rifahı mövzusuna öz yanaşmasının təzahürüdür. Sadhquru qədim yoqa elminə əsaslanaraq insanın əsaslı və davamlı mənəvi transformasiyasına xidmət edən sistem yaradıb. "Mənəvi quruculuq: gümrahlığın texnologiyaları" insanın bədəni, ağılı, duyğuları və enerjisini pik nöqtədə, tam harmoniyada birləşdirmə üsuludur. Sadhquru müstəsna xidmətlərinə görə Hindistanın "Padma Vibhuşan" ("Padma Vibhushan") dövlət mükafatı ilə təltif olunub. Dərin, təsirli və məntiqli çıxışları Sadhquruya natiq kimibeynəlxalq nüfuza malikdir. Sadhqurunun cəmiyyətin qlobal problemlərinə, insan rifahı mövzusuna özünəməxsus yanaşması vardır. O, bir sıra beynəlxalq forumlarda, o cümlədən BMT-nin mənzil qərargahında, Ümumdünya İqtisadi Forumunda, TED konfranslarında isə mütəmadi çıxışlar edir. 1992-ci ildə Sadhquru insanların rifahına xidmət edən beynəlxalq İşa Fondunu təsis edib. İşa Fondunun dünya miqyasinda fəaliyyət göstərən 250 mərkəzi üzrə 9 million könüllüsü vardır. İşa Fondunun BMT-nin İqtisadi və Sosial Şurası nəzdində xüsusi məsləhətverici statusu vardır. Fondun əsas məqsədi hər bir insana onun daxili potensial imkanlarını dərk etməyə yardımçı olmaq və bütün dünyaya toperantlıq və harmonik abu-havanın yayılmasına xidmət etməkdir.

Sadhquru bir çox nikbin ruhlu çıxışlarında texnologiyaların inkişafında insan rifahına gedən yolu görür. Onun fikrincə, yaxın gələcəkdə dominantlıq ideyası köhnəlcəkdir. Dünyada ayrı-ayrı kompaniya və dövlətlər deyil, insanlar üstünlük təşkil edəcək. Həmin zaman insanın gizlin qalan potensialı üzə çıxacaqdır. O, qeyd edir ki, dominantlıq ideyası yoxsul şüurun və mentalitetin məhsuludur. Qurunun qənaətinə görə, bəşəriyyətin potensialını tam açmağa imkan vermeyən ideya – yaşamaq uğrunda mübarizə ideyasıdır. Bu gün insanlar yaşamlarını təmin etmək üçün çox çalışır. Lakin texnologiyaların inkişafı prosesi süni şəkildə ləngidilməsə yaşamaq uğrunda mübarizə

etmək gərəkli omayacaqdır. Hamı həyatın nemətlərinə bərabər və zəhmətsiz təmin olunacaqlar. Sadhquruya görə, gələcəkdə ərazi və dil sərhədləri silinəcək. Qurunun ilk baxışdan utopik görünən görüşləri bəşəriyyətə liderlik uğrunda mübarizədən azad həyat tərzi vəd edir. Bu gün imkan sərhədləri texnoloji fikrin imkan sərhədləri ilə məhdudlaşır. Artıq texnologiya insanlara yaşamaq uğrunda mübarizədən azad, əsəbsiz və depressiyasız həyat tərzi təmin etmək imkanındadır.

**İnduizmin qlobal, liberal və antiqlobal diskursu**. Müasir elmi ədəbiyyatın araşdırması bizə görsədir ki, induizm qlobal, liberal və antiqlobal diskursda təhlil olunur. Belə ki, qlobal diskursda induizm Hindistandan xaric və mədəni-tarixi vətəni olan torpaqlarda dini əsaslarını təbliğ edir. Əgər Qərbdə induizm dini ehkamlarını bir etnik din kimi yerli mədəni ənənəyə, demokratik dəyərlərə, konstitusiya hüquqlarına uğurla adaptasiya edirsə, Asiya ölkələrində isə demokratik azadlıqların məhdud olmasından istifadə edərək özünü artıq dünya dini statusu almış bir din kimi təqdim edir.

Liberal diskursda Hindistan Qərb və Asiya ölkələrinə müasir qloballaşmaya alternativ olan etnokonfessional "induist qlobal layihə"ni təqdim edir və onun həyata keçirilməsi üçün bütün səylərlə çalışır.

Hindistan yuxarıdakılara rağmən müdafiə pozisiyasını tutaraq antiqlobalist mövqeyni də qorumaqdadır. Hindistan cəmiyyət daxilində liberal-demokratik təsisatları inkişaf etdirsə də mədəni qloballaşmanın yaratdığı məkandan özünütəcrid cəhdlərini göstərir və ənənəvbi induizm institutlarının reanimasiya tədbirlərini həyata keçirir.

Maraqlı faktdır ki, bütün dünyaya dinlərin tolerant mühitdə birgə mövcudluğunun mümkünlüyünü iddia edən Hindistan dövlət siyasəti səviyyəsində induizmdən digər dinə keçənləri və bu işə təhrik edənləri dövlət xaini kimi ittiham edərək cinayət məsuliyytinə belə cəlb edir.

Müstəqilliyinin ilk illərində Hindistan C.Nehrunun sözəri ilə desək "həqiqi beynəlmilləlçiliyi"n tərəfdarı kimi çıxış edərək, "ümumbəşəri sülh" qlobal ideyanı irəli sürürdülərsə bu gün XXI əsrdə Hindistanın gündəmə gətirdiyi "qlobal biliklər mərkəzi statusu"nun qazanmaq iddiası aşkar göz önündədir. 14 avqust 1947-ci il tarixində 200 illik Britaniya müstəmləkəçilik əsarətindən azad olan gün Hindistanın ilk baş naziriC.Nehru bu hadisəni "taleh ilə görüş" adlandırmışdır. Bu gün Hindistanda baş verən iqtisadi liberallaşma və mədəni qloballaşma prosesləri Hindistanın "taleyi ilə ikinci görüşü" hesab olunur. Hindlilər onları qlobal inkişaf axınına qoşa biləcək bu tarixi imkandan olduqca səmərəli istifadə etmək niyyətindədirlər.

**Nəticə**. Ümumiyyətlə, universalist induizm təsəvvürolunmaz dərəcədə müxtəlif çoxsaylı baxış və fikirləri özündə cəmləşdirir. Universalist induizmə Şərq və Qərb ənənənin sosial təcrübəsini artıq çox çətinliklə müəyyən etmək mümkün olduğu məhz buxüsusiyyəti müasir informasiya cəmiyyətində Qərb auditoriyası tərəfindən rəğbətləqarşılanır.

## Ədəbiyyat:

1. Литман А.Д. Современная индийская философия. Москва: Мысль, 1985, 398 с.

2. Утренняя Роса: Портал Интегрального Самопознания // https://www.sriaurobindoyoga.org/%D0%B0%D1%83%D1%80%D0%BE%D0%B2%D0%B8%D0%BB%D1%8C/
3. **Воронина М.В. Объединяющий потенциал индуизма** // Вестник КГУ им. Н.А. Некрасова № 1, 2011
4. Агеенкова Е.К. «Искусство жизни»: неоиндуизм в условиях западного общества // Журнал: Сектоведение. Том 6, 2017 год, Минская духовная академия Белорусской Православной Церкви (Минск) // https://elibrary.ru/item.asp?id=32390597
5. Кнорре Борис. Индуизм: от глобальной адаптации — к альтернативному глобалистскому проекту//РЕЛИГИЯ И ГЛОБАЛИЗАЦИЯ НА ПРОСТОРАХ ЕВРАЗИИ // https://carnegieendowment.org/files/12289RG_blok.pdf., 282 стр.
6. Кауль Е.Н. Индия и Азия.М., Прогресс,1989, 240 с.
7. Журнал "Индия. Перспективы." Выпуск 2,3,4. Апрель-июнь. Июль-сентябрь. Октябрь - декабрь.
8. Радхакришнан С.Индийская философия. Концепции.М., Альма-Матер, 2008, 1007 с.
9. Н.А.Крашенникова. Правовая культура современной Индии. Инновационные и традиционные черты.М., Норма, 2013, 304 с.
10. Альбедил М.Ф. Индия. Беспредельная мудрость.., Алетейа, 2003, 416 с.
11. А.Г.Дугин.Ноомахия. Войны ума. По ту сторону Запада. Индоевропейские цивилизации: Иран, Индия. М., Академический проект, 2014
12. Мирча Элиаде. История веры и религиозных идей. От Гаутамы Будды до триумфа христианства.М. Академпический проект, 2009, изд.2, 676 стр.
13. Желябовская Л.В. Религии Индии. М., Мир книги, 2006, 192 стр.
14. Великие сокровища мировых религий. М., Эксмо, 2010, 512 с.

**Егяна Алиева**

## Альтернативные глобалисткие идеи развития человечества в учениях духовных учителей Индии (Ауробинди Гхош, Сатья Саи Баба)

### Резюме

Сегодня Индия является третьей гигантской азиатской страной предлагающей мировому сообществу альтернативную глобалисткую модель развития. Известно, что Индия выбрала путь преодоления традиционных моделей мировоззрения, посредством синтеза гносеологических и ценностных принципов восточной и западной культуры. В статье анализирует теорию «интегральной веданты» Ауробиндо Гхош и концепцию синкретической модели жизнедеятельности Шри Сатья Саи Бабы. Автор приходит к выводу, что внимание западной аудитории, приковано именно к способности учений индийских гуру гармонично, синтезировать восточные и западные традиции в своих учениях.

**Ключевые слова**: Индия, Восток, Запад, интегрализм, синкретизм, неоиндуизм.

**Egana Aliyeva**

**Alternative globalist ideas of human development in the teachings of the spiritual teachers of India (Aurobindo Ghosh, Satya SAIBaba)**

**Summary**

Today, India is the third giant Asian country offering the world community an alternative globalist model of development. It is known that India has chosen to overcomethe traditional models of worldview, through the synthesis of epistemological and value principles of Eastern and Western culture. The article analyzes the theory of "integral Vedanta" by Aurobindo Ghosh and the concept of a syncretic model of life of Sri Sathya SAI Baba. The author comes to the conclusion that the attention of the Western audience is focused on the ability of the teachings of Indian gurus to harmoniously synthesize Eastern and Western traditions in their teachings.

**Key words**: India, East, West, integralism, syncretism, neo-Hinduism.